UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.1.223

SAMİRƏ SƏFƏROVA*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIGINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU

*Azərbaycan xalq musiqisinin əsas jannrlarından biri-mahnı jarıdır.Əsrlər boyu həm xalq* tərəfindən həmçinin *bəstəkarlar* tərəfindən muxt*əlif mövzularda mahnılar yazılmışdır Xalq mahnıları ilə yanaşı bəstəkar mahniları da xalq tərəfindən en az xalq mahnıları qədər sevilmışdir. Azərbaycann bəstəkarlaı* müxt*əlif janrlarda könülləri oxşayanmahnılar yazmışlar. Azərbaycan ərazisində olan müharibələr, musiqimizə təsirsiz ötüşməmişdir. Vətən torpağını canımızla sevməyimiz, daim döyüş öncəsi və döyüş sonrası, hətta döyüşə gedərkən belə özünü göstərib və döyüşlər, musiqi, zərb və savaşa ruhlandırıcı mahnı, döyüş rəqsləri, sonralar da aşıq saz havaları ilə müşayiət olunub. Həmçinin Azərbayan bəstəkarları bu mövzuda müxtəlif janrlarda əsərlər yaratmışlar. Bu baxımdan* Azərbaycan bəstətkarlarının bu mövzuda yazdığı əsərlər təqdirə layiqdir. Bəstəkarlarımız *həm Böyük Vətən müharibəsi dövründə* həmçinin I və II Qarabağ müharibəsi zamanı *qəhrəmanlıq motivli yüzlərlə əsər yaradıblar*

***Açar sözlər:*** *v*ətənpərvərlik, bəstəkar, janr, xalq musiqisi, Vətən Müharibəsi.

## Giriş

Azərbaycan xalq musiqisinin əsas janrlarından biri-mahnı jarıdır. Əsrlər boyu həm xalq tərəfindən həmçinin bəstəkarlar tərəfindən muxtəlif mövzularda mahnılar yazılmışdır. Azərbaycan xalq musiqisini böyük hissəsini xalq mahnıları təşkil edir.

## Əsas təhlil

Xalq mahnıları ilə yanaşı bəstəkar mahniları da xalq tərəfindən en az xalq mahnıları qədər sevilmışdir. Azərbaycan bəstəkarlaı müxtəlif janrlarda könülləri oxşayan mahnılar yazmışdırlar. Bu mahnıların demək olar ki böyük əksəriyyətinin mövzusu real həyatdan götürülmüşdür. Həmcinin bəstəkarlar oz yaradıcılıqlarında vətənpərvərlik mövzusuna geniş müraciət etmişlər. Onlar bu mövzuya müraciət etməklə Azərbaycan xalqının qəhrəmanlarini,tarixdə iz qoyan sərkərdələrin, dahi şəxsiyyətlərini, şair və mütəfəkkirıərini oz musiqilərində bir daha əbədiləşdirmişlər.

Bu mövzu bütün bəstəkarların yaradılığında mühüm yer tutmuşdur. Dastanlarımızdan tutmuş bu günümüzə qədər aşıqların dilindən, xalqımızın yaddaşından süzülən vətənpərvərlik musiqiləri zamanla bəstəkarlarında yaradıcılığında özünəməxsus yer tutmuşdur. Bu mövzuda onlar mahnı janrından tutmuş iri həcmli ciddi əsərlər yazmışlar. Bəstəkarlar istər Böyük Vətən müharibəsi dövründə, istərsə I və II Qarabağ müharibəsi dövründə ən gözəl könül oxşayan, milli ruhda, gənc nəsli mübarizəyə səsləyən, onların vətənpərvərlik ruhunda tərbiyəsinə müsbət təsir edən mahnılar, oratoriyalar, müxtəlif janrda əsərlər yazmışlar.

Bu baxımdan Azərbaycan bəstətkarlarının bu mövzuda yazdığı əsərlər təqdirə layiqdir. Bəstəkarlarımız Böyük Vətən müharibəsi dövründə qəhrəmanlıq motivli yüzlərlə əsər yaradıblar. İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 70 illiyi bu il bütün tərəqqipərvər bəşəriyyət tərəfindən qeyd olunur. 1941-1945-ci illərdə Sovet İttifaqının tərkibində bu müharibədə iştirak edən Azərbaycan bu zəfərə tarixi töhfələr vermişdir. Həm döyüş meydanlarında, həm də arxa cəbhədə şücaət və əzmkarlıq göstərən xalqımızın yaradıcı insanları da vətənpərvərlik ruhlu, Qələbə soraqlı əsərləri ilə sənət meydanında müsəlləh əsgər olmuşlar.

Tədqiqatçıların yazdığına görə, müharibə illərində bəstəkarlarımız bu qəbildən 400 əsər [marş, simfoniya, mahnı, opera və s.] yaratmışlar. Üzeyir Hacıbəylinin "Şəfqət bacısı", "Qələbə himni", Səid Rüstəmovun "Cəbhəyə", Süleyman Ələsgərovun "Gözlə məni" mahnıları həmin dövrdə dillər əzbərinə çevrilmişdi. Aşıq Məhərrəm Bayramovun "Kamal haqqında dastan"ında azərbaycanlı gəncin faşistlərlə döyüşdə qəhrəmanlığı tərənnüm edilirdi.

1941-1945-ci illərdə Azərbaycan musiqisi simfonizmin geniş yoluna qədəm qoyur. Bu dövrdə yaranmış musiqi nümunələri arasında 25-dən çox simfonik əsər vardı. Onların xeyli hissəsi bilavasitə Böyük Vətən müharibəsi ilə əlaqədar yazılmışdı. Dövrün yeni nəsil bəstəkarları Qara Qarayevin, Cövdət Hacıyevin, Soltan Hacıbəyovun ilk simfoniyaları bu qəbildən idi. Fikrət Əmirovun simfonik poeması müharibədə həlak olmuş bəstəkar İsrafil İsrafilzadənin xatirəsinə həsr edilmiş, Niyazinin "Xatirə" və "Döyüşdə" simfonik əsərləri ictimaiyyətin diqqətini özünə cəlb etmişdi.

Böyük Vətən müharibəsi dövründə Azərbaycan opera teatrının repertuarı da yeni əsərlərlə zənginləşmişdir. Onların sırasında "Vətən", "Xosrov və Şirin" operalarını, "Qız qalası" ilk milli baleti və başqa əsərləri göstərmək olar. Beləliklə, vətənə sədaqətlə xidmət, ön cəbhədə döyüşçülərin, arxa cəbhədə isə fəhlə və kolxozçuların misilsiz qəhrəmanlığı Azərbaycan bəstəkarlarının yaratdığı vokal və instrumental əsərlərin əsas mövzusu Bəstəkarlarımız Böyük Vətən müharibəsi dövründə qəhrəmanlıq motivli yüzlərlə əsər yaradıblar.

Qara Qarayev və Cövdət Hacıyevin Dövlət mükafatına layiq görülən dördpərdəli "Vətən" operası Sovet İttifaqında Böyük Vətən müharibəsi mövzusuna toxunan ilk operadır. Əsərdə müharibənin qəhrəmanlıq pafosu parlaq əks etdirilmiş, Azərbaycan döyüşçülərinin rəşadət və igidliyi yüksək sənət zövqü ilə göstərilmişdir. Müharibə illərində yaranmış əksər əsərlərdə qəhrəmanların obrazları vətənpərvər duyğuların, mənəvi keyfiyyətlərin qabarıq şəkildə əks olunması ilə səciyyələnirdi **[1].**

Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Zemfira Qafarova Böyük Vətən müharibəsi illərində Azərbaycan musiqisinin inkişaf meylləri barədə fikirlərini diqqətinizə çatdırmaq istərdik. "… amansız müharibə vaxtı incəsənət, xüsusən də musiqi sahəsi dayanmadan inkişaf edirdi: "Musiqiçilərimizdən də müharibəyə gedənlər olmuşdu. Bir çoxu arxa cəbhədə öz işini davam etdirirdi. Bəstəkarlar Məmməd İsrafilzadə, Hacağa Nemətov və başqaları müharibədən qayıtmadılar. Müharibə illərində Azərbaycan Bəstəkarlar İttifaqına Üzeyir bəy rəhbərlik edirdi və onun başçılığı ilə bəstəkarlarımız kütləvi şəkildə vətənpərvərlik ruhunda mahnılar bəstələyirdilər.

Müasir dövrümüzdə yazılan musiqilərədən danışarkən mütəxəssislərin araşdırmalarına görə, həm birinci Qarabağ müharibəsi, həm Vətən müharibəsi günlərində ən çox dinlənilən, ifa edilən ötən əsrin 90-cı illərdə Cavanşir Quliyevin yazdığı "Marş irəli!", hərbi vətənpərvərlik mahnılarının məşhur ifaçısı Şəmistan Əlizamanlının "Cənab leytenant", "Vətən əmanəti", «İgid əsgər» və bu kimi digər mahnılar oldu. Lakin indi daha çox zəfər və qələbə marşlarına böyük ehtiyac yaranıb. Bəstəkarlar İttifaqının katibi, Bakı Musiqi Akademiyasının professoru, musiqişünas Zemfira Qafarova vətənpərvərlik musiqisinin gənclərin milli mənliyinin formalaşmasında oynadığı rola toxunub: "Zamanında Üzeyir Hacıbəyov, Süleyman Ələsgərov, Əşrəf Abbasov çox gözəl marşlar yazıblar, hansı ki, həmin marşlar müharibə dövründə mütəmadi səslənirdi. Hazırda da bəstəkarlarımız tərəfindən gözəl marşlar yazılıb. Qeyd etmək yerinə düşərdi ki, Azər Dadaşov, Lalə Cəfərova, Elnarə Dadaşovanın yeni marş əsərləri var. Hətta bugünlərdə xalq artisti, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə də çox gözəl marş yazıb. Bildiyiniz kimi, Firəngiz xanım adətən iri həcmli əsərlərə müraciət edir, amma gördüyünüz kimi, o da marş yazıb. Çox sevindirici haldır ki, 44 gün ərzində yalnız vətənpərvərlik mahnıları, marşlar eşitdik. Cavanşir Quliyevin 90-cı illərdə yazdığı "Marş irəli!" nəyə desəniz dəyər. Vətən müharibəsi dövründə bu marş, demək olar ki, leytmotiv oldu, hər kəs onu oxuyurdu" [3].

Ümumiyyətlə, bəstəkarlarımız hərbi vətənpərvərlik mövzusunda bir çox əsərlər yaradıblar. Mərhum bəstəkar Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi", "Odlar yurdu", "Çanaqqala", "Qəm karvanı", "Çəkin Qarabağdan qara əlləri", "Şuşam, laylay", "Natəvan", Ramiz Mustafayevin "Salatın", "Haqq səninlədir, Azərbaycan", Tofiq Bakıxanovun "Yeddi saylı Qarabağ harayı", Aqşin Əlizadənin "Ana torpaq", Vasif Allahverdiyevin "Qarabağ balladası", "Türk marşı", "Cəngi sədası", Mobil Babayevin "Məmləkətim", Tahir Əkbərin "Azadlığa gedən yollar", "Azərbaycan", Rəşid Şəfəqin "Ana torpaq Qarabağ", Oqtay Kazımovun "Qarabağ lövhələri", İsmayıl Hacıyevin "Qarabağ", Sevda İbrahimovanın "Vətən şəhidləri", "Sənin üçün darıxmışam, Şuşa", Firəngiz Əlizadənin "Qarabağnamə" operası, Oqtay Rəcəbovun 35 mahnıdan ibarət "Vətən nəğmələri" adlı məcmuəsi və s. gənc nəsil və əsgərlər üçün nəzərdə tutulub [2].

Milli Ordumuzun igid əsgərlərinin işğalçı düşmənə layiqli cavab verdiyi bu günlərdə Azərbaycan televiziya və radiosunun kanallarında ən çox hərbi-vətənpərvərlik mövzusunda mahnılar səslənirdi. Bu mahnıların mətni düşmənə qarşı vuruşmağın, Vətəni, ata-baba yurdunu qorumağın şərəfli bir iş olduğunu göstərir, haqdan-ədalətdən vaz keçməməyi öyrədir. Bu mənada Azərbaycan Yazıçılar Birliyinin [AYB] üzvü, AYB Hərbi Vətənpərvərlik Komissiyasının sədri, ixtisasca həkim olan Şahin Musaoğlu bəstələdiyi hərbi mahnılarla, marşlarla yorulmadan sülh uğrunda savaş aparır. O, gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsində böyük rol oynayan 30-dan çox

hərbi-vətənpərvərlik musiqisinin müəllifidir. “And içirik”, “Birinci batalyon”, “İgid əsgər, möhkəm dayan”, “Qalx, Azərbaycan!”, “Cənab leytenant”, “Vətən əmanəti” və başqa populyar hərbi mahnıların sözləri də Şahin Musaoğluna məxsusdur. Həmçinin o, “And içirəm”, “Vətən çağırır”, “Öncə Vətəndir”, “Səfərbərlik” və “Çağırışçı” marşlarının müəllifidir.

Məlumat üçün bildirək ki, Şahin Musaoğlu 1991-1994-cü illərdə könüllü olaraq Qarabağ savaşında, Ağdam - Ağdərə döyüş bölgələrində hərbi həkim - jurnalist kimi fəaliyyət göstərib. “İgid əsgər, möhkəm dayan” adlı ilk mahnısını da həmin illərdə yazıb. Azərbaycanın Levitanı adını qazanmış hərbi aparıcı Şəmistan Əlizamanlının ilk dəfə ifa etdiyi bu mahnını Şahin Musaoğlu Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr edib.

Mahnının mətni sonralar Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin 4-cü sinif üçün dərs vəsaiti olan “Ana sözü” kitabına daxil edilib. Əsgərlərimizi, qəhrəmanlarımızı vəsf edən mahnılarını dinlədiyimiz hərbi diktor, hərbi vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlının ifasında səslənən “Ağ ümid”, “Birinci batalyon”, “Cənab leytenant” hərbi mahnıları da şərəfli döyüş yolu keçən və doğma Vətəni göz bəbəyi kimi qoruyan Azərbaycan zabitlərinə həsr olunub.

“Azərbaycan”, “Azərbaycan, qalx”, “Şəhidlər ölməz”, “Ulu torpaq”, “Vətən bölünməz şəhidlər ölməz”, “Zəfər zəngi” və s. kimi zəngin repertuarı ilə ürəkləri riqqətə gətirən Xalq artisti Mübariz Tağıyev isə deyib ki, “Hiss edirsinizsə, bu günə kimi yazılan vətənpərvərlik mahnılarının əksəriyyətində bir qədər ağrı-acı var. Onların əksəriyyəti müharibə illərində, torpaqlar işğal altında olarkən yazılan mahnılardır….” [2].

Müasir bəstəkarların milli vətənpərvərlik ruhunda yazdığı musiqi əsərlərinin bir yerə toplanması, onların notlarının çap olunması, habelə ifası çox mühümdür.

Belə ki, Vətən müharibəsindən sonra bu sahədə işlər görülməyə başlayıb. Azərbaycan Milli Kitabxanasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə birgə layihəsi olan “Milli musiqi xəzinəmizdən [Azərbaycan Milli Kitabxanasının fondundan]” seriyasından “Vətənpərvərlik mahnıları” adlı səs və fortepiano üçün not məcmuəsi nəşr olundu. Sözügedən not məcmuəsinə “Azərbaycan bayrağına” [mus. Aygün Səmədzadə, söz. Əhməd Cavad]; “Azərbaycan” [mus. Aygün Səmədzadə, söz. Qənirə Paşayeva]; “Vətənin övladları” [mus. Lalə Cəfərova, söz. Ramiq Muxtar]; “Unutmayacağıq da” [mus. Nərminə Nağıyeva, söz. Şahin Musaoğlu]; “Azərbaycan” [Mus. və sözləri Fərid Fətullayev]; “Qələbəyə gedən yollar” [mus. Azad Zahid, söz. Abdulla Qurbani]; “Zəfər çağırır bizi” [mus. Pikə Axundova, söz. Şahin Musaoğlu]; “Əsgər marşı” [mus. Cavanşir Quliyev, söz. Əli Kami]; “Milli Ordumuz” [mus. Eldar Babayev, söz. Hikmət Ziya]; “Azadlıq Günü” [mus. Azər Hacıəsgərli, söz. Rəsul Rza] səs və fortepiano üçün musiqi əsərləri yer alıb. Bu məcmuələrin bütün musiqi məktəblərinə və Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə göndərilməsi təmin edilib.

**Nəticə**

Vətənpərvərlik mahnılarına, əsərlərinə hər zaman ehtiyac var və hesab edirik ki, yeni vətənpərvərlik əsərləri də cəmiyyətdə gənclərin vətənpərvərlik tərbiyəsinin formalaşmasında mühüm rol oynayacaq.

## ƏDƏBİYYAT

1. Azəri l.  Barıt qoxulu yollar. “Mədəniyyət” qəz., 2015, 6 may, s. 15.
2.Bayramlı M. Yeniyetmə və gənclərin milli ruhda tərbiyə olunması hər kəsin qarşısında duran mühüm vəzfiələrdəndir. “Yeni Azərbaycan” qəz., 2020, 20 oktyabr.
3.Gəray X. Qələbə şərəfinə marşlar yazılırmı?  “Yeni Müsavat” qəz., 2020, 02 dekabr.
4.Rəcəbov O., Kazımov N., Nuruqızı S. Musiqi (7-ci siniflər üçün metodik vəsait). Bakı: Şərq-Qərb, 2022, 96 s.

***Naxçıvan Dövlət Universiteti**
***e-mail:safarovasamire323@mail.com***

**Samira Safarova**

**IN THE CREATION OF AZERBAIJAN COMPOSERS**
**THEME OF PATRIOTISM**

One of the main genres of Azerbaijani folk music is the folk song. Over the centuries, songs have been written by the people as well as by composers on various topics. Along with folk songs, composers' songs have been loved by the people at least as much as folk songs. Azerbaijani composers have written heartwarming songs in various genres. The wars in the territory of Azerbaijan did not leave an impact on our music. Our love for the motherland with all our souls was always manifested before and after the battle, even when going to battle, and was accompanied by battles, music, percussion and war-inspiring songs, war dances, and later, love music. Also, Azerbaijani composers have created works in various genres on this topic. From this point of view, the works written by Azerbaijani composers on this topic are worthy of appreciation. Our composers created hundreds of works with heroic motives during the Great Patriotic War as well as during the First and Second Karabakh War.

**Keywords:** *patriotism, composer, genre, folk music, Patriotic War.*

**Самира Сафарова**

**В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ**
**КОМПОЗИТОРОВТЕМА ПАТРИОТИЗМА**

Одним из основных жанров азербайджанской народной музыки является народная песня.На протяжении веков народом и композиторами писались песни на различные темы. Наряду с народными песнями, песни композиторов были любимы в народе не менее столько же, сколько народные песни. Азербайджанские композиторы написали трогательные песни в различных жанрах. Войны на территории Азербайджана не повлияли на нашу музыку. Наша любовь к Родине всей душой всегда проявлялась до и после боя, даже при походе в бой, и сопровождалась боями, музыкой, ударными и воинственными песнями, боевыми плясками, а позже и любовной музыкой. Также азербайджанские композиторы создали на эту тему произведения в различных жанрах. С этой точки зрения произведения азербайджанских композиторов на эту тему достойны высокой оценки. Наши композиторы в годы Великой Отечественной войны, а также в годы Первой и Второй Карабахской войны создали сотни произведений с героическими мотивами.

**Ключевые слова**: *патриотизм, композитор, жанр, народнаямузыка, Отечественная война.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 07.01.2024**
**Son daxilolma tarixi:11.02.2024**